# MASALLIDA BAYRAM TƏDBİRLƏRİ

**31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Masallı rayonunda silsilə tədbirlər keçirilir. Rayon icra hakimiyyətinin inzibati binasının qarşısındakı meydanda möhtəşəm yeni il yolkası qurulub.**

Şəhərin park və meydançaları, prospektləri təzə ilin atributları ilə bəzədilib. Abadlıq, quruculuq işləri hər yanda geniş vüsət alıb. Gözəllik, səliqə-səhman insanlarda xoş ovqat yaradır. Hər tərəfdə bayram əhval-ruhiyyəsi hiss olunur. Masallılılar yeni ili yüksək əhval-ruhiyyə içində qarşılayırlar.

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə Masallı Dövlət Regional Kollecinin tələbələrinin Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub. Mərkəzin elmi işçisi Rəşad Dadaşov məlumat verib ki, mərkəzdə ümummilli liderin ömür yolunu və dövlətçilik fəaliyyətinin bütün dövrlərini əks etdirən video və fotoarxiv, sənədlər, müxtəlif eksponatlar qorunur.

Tələbələr mərkəzdə gənclərin əl işlərindən ibarət sərgilə tanış olublar. “Dəyirmi masa” arxasında “Ulu öndərin həmrəylik ideyaları” mövzusunda məruzə dinlənilib. Diskussiya təşkil olunub.

Masallı Olimpiya İdman Kompleksində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən “Cırtdan” ailəvi meqa-şousu minlərlə uşaq və onların valideynləri tərəfindən böyük maraqla qarşılanıb.



Meqa-şou Azərbaycanın xalq nağıllarının personajları əsasında hazırlanıb. Şouda balacalar Cırtdanın macəralarını, qara qüvvələrin pis əməllərini, xeyrin qələbəsini seyr ediblər. Şou uşaqlarla yanaşı, böyüklərə də gözəl hisslər, sevinc dolu anlar yaşadıb.

Gün ərzində üç seansda təqdim olunan meqa-şouda aktyorlardan İlqar İbrahimov Cırtdan, Nuranə Hüseynova Tıq-tıq xanım, Cümşüd Zeynalov Div, Şamil İbrahimli Məlikməmməd, Firuzə Balayeva İfritə, Ramil Məmmədov İfrit rollarını məharətlə ifa ediblər.

Meqa-şounun rejissoru İlham Qasımovun məlumatına görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə reallaşan layihənin məqsədi uşaqları öz sevimli nağıllar dünyası, onların personajları ilə yaxından tanış etməkdən ibarətdir. Şounun Azərbaycanın digər şəhər və rayonlarında da göstərilməsi nəzərdə tutulub.

**Əlisəfa HƏSƏNOV,**
**“Respublika”.**